# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin 29-cu Sədri Mustafa Şentopa məktub ünvanlayıb



**Spiker məktubda Mustafa Şentopun TBMM-in Sədri kimi fəaliyyəti dövründə qardaş ölkə parlamentinin əldə etdiyi uğurları qeyd edib, bu dövrdə ölkələrimizin ali qanunvericilik orqanları arasındakı əlaqələrin daha da inkişaf etdiyini və keyfiyyətcə yeni səviyyəyə çatdığını vurğulayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanın Mustafa Şentopla telefon danışığı da olub. Telefon danışığında Sahibə Qafarova Mustafa Şentopa TBMM-in sədri kimi fəaliyyəti dövründə parlamentlərarası əlaqələrin inkişafına verdiyi töhfəyə görə bir daha təşəkkür edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Mustafa Şentop öz növbəsində Türkiyə parlamentinin Sədri kimi fəaliyyətinə verdiyi yüksək dəyərə görə Sahibə Qafarovaya dərin minnətdarlığını bildirib, bundan sonrakı fəaliyyəti dövründə də dost və qardaş xalqlarımız arasındakı münasibətlərin daha da dərinləşməsinə çalışacağını ifadə edib.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-9 iyun.- S.3.